**Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlığı təşviq etmək məqsədi ilə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2013-cü il martın 11-də Zaqreb şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 3 may tarixli 882 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş”in icrasını və ikitərəfli iqtisadi əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlığı təşviq etmək məqsədi ilə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

***Komissiyanın həmsədri***[1]

*Azərbaycan Respublikasının Mədəniyyət naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası Energetika nazirinin müavini*
*Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.*

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlığı təşviq etmək məqsədi ilə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Xorvatiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 aprel 2015-ci il
1174

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )**
2. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)**
3. 17 mart 2018-cı il tarixli **3809** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Xalq” qəzeti, 18 mart 2018-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 533)**
4. 2 mart 2020-ci il tarixli **1881** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Xalq” qəzeti, 3 mart 2020-ci il, 48 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 266)**

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)** ilə 1-ci hissəsində “**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini**” sözləri “**rabitə və yüksək texnologiyalar nazirinin müavini**” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )** ilə 1-ci hissədən “**və sənaye**” sözləri çıxarılmışdır.

17 mart 2018-cı il tarixli **3809** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Xalq” qəzeti, 18 mart 2018-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 533)** ilə 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın həmsədri**~~

| | | |
|---|---|---|
| ~~Fazil **Məmmədov**~~ | – | ~~Azərbaycan Respublikasının vergilər naziri.~~ |
| | | ~~**Komissiyanın üzvləri:**~~ |
| ~~İltimas **Məmmədov**~~ | – | ~~Azərbaycan Respublikası *rabitə və yüksək texnologiyalar nazirinin müavini*~~ |

~~Xələf **Xələfov**~~ – ~~Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~

~~Sahil **Babayev**~~ – ~~Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini~~

~~Natiq **Abbasov**~~ – ~~Azərbaycan Respublikası energetika nazirinin müavini~~

~~Abbas **Vəlibəyov**~~ – ~~Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~

~~Nazim **Səmədov**~~ – ~~Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~

~~Ehtiram **Rəhimov**~~ – ~~Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini~~

~~Kamil **Xasiyev**~~ – ~~Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.~~

2 mart 2020-ci il tarixli **1881** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 mart 2020-ci il, 48, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 266**) ilə 1-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

***~~Komissiyanın həmsədri~~***

*~~Azərbaycan Respublikasının vergilər naziri~~*

***~~Komissiyanın üzvləri~~***

*~~Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası energetika nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~*
*~~Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.~~*